# Reketçilik mənəviyyatımıza, milli dəyərlərimizə də ziddir

**Bu gün Azərbaycan söz və fikir azadlığının bərqərar olduğu, hər bir vətəndaşın istənilən mətbuat orqanına maneəsiz çıxışının təmin olunduğu bir məkandır. Uzun bir yol keçən milli mətbuatımıza müstəqillik dövründə daim diqqət və qayğı göstərilib və bu davamlıdır. Belə ki, dövlətimizin inkişaf dinamikası milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmaqla yanaşı, rəqabət qabiliyyətini daha da yüksəltmişdir. Əhalinin internet istifadəçisi olduğu bir cəmiyyətdə yeni texnologiyalara əsaslanan elektron kütləvi informasiya vasitələrinin inkişafı mətbuatın daha çevik, daha operativ fəaliyyət göstərməsi üçün ideal şəraiti təmin edir.**

Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkədə demokratik media mühiti yaranandan sonra təəssüf ki, azad, demokratik media mühitindən sui-istifadə etmə halları da meydana çıxmışdır. Azərbaycan müstəqillik yoluna qədəm qoyandan sonra demokratik ölkələrin tələblərinə uyğun olaraq, bu sahədə tənzimləyici qurumları ləğv etdi. Verilmiş bu azadlıqdan, demokratik imkanlardan isə neqativ məqsədlər üçün istifadə edənlər ortaya çıxdı ki, bunları da "reket jurnalistlər" adlandırırlar. "Reket jurnalistlər"ə qarşı uzun müddət medianın özünütənzimləmə imkanları çərçivəsində mübarizə aparılsa da, təəssüf ki, mübarizəni indiyə qədər sona çatdırmaq, "reket jurnalistika" ilə bağlı problemlərin kökünü tamamilə kəsmək mümkün olmayıb.



***Ona görə də belə hallara qarşı ictimaiyyət birgə mübarizə aparmalıdır***

Azərbaycan jurnalistikasına qara ləkə olan reketçilik öz işinin başlıca məqsədinə çevirən media qurumları ilə mübarizə son zamanlar yeni mərhələdə daha da gücləndirilib. Mətbuat üzərində dövlət nəzarəti mexanizmi olmasa da, Mətbuat Şurasının tərkibində belə halların qarşısını almaq üçün 2008-ci ildən "Reket jurnalistikasına qarşı mübarizə" komissiyası fəaliyyət göstərir. Ancaq bu da bəzən "reket jurnalistikası"nın qarşısını ala bilmir. Bütün bunlara baxmayaraq, bu cür fəaliyyətlə məşğul olan bəzi şəxslər yenə də əməllərindən əl çəkmir, virtual müstəvidə fəaliyyətlərini genişləndirməyə cəhd edirlər. Bu məsələ ilə bağlı sistemli şəkildə mübarizə aparılır. Məhz effektiv mübarizə, çap mediasında "reket jurnalistikası"na qarşı ciddi tədbirlər sayəsində bu gün həmin neqativ qüvvələrin sayı olduqca azalıb. Lakin məsələ burasındadır ki, həmin "reket jurnalistlər" bu məsələni virtual müstəviyə daşıyaraq, yenidən öz "işlərini" davam etdirirlər. Bildiyimiz kimi, onlayn media olduqca sürətli və yeni bir sahədir. Bunun qarşısını almaq üçün artıq yeni sistemlər, mübarizə üsulları formalaşdırılmalıdır. Cəmiyyətdə haqlı olaraq belə fikir söylənilir ki, "reket jurnalistika" ilə mübarizənin ən səmərəli üsulu onların qanunpozan şəxs kimi məsuliyyətə cəlb edilməsidir. Elə Baş prokuror Kamran Əliyev də müsahibəsində bu yanaşmanı vurğulayır: "Reket jurnalistikası" cinayətkar fəaliyyətdir və bununla məşğul olan şəxslər məsuliyyətə cəlb olunur. Onların barəsində qanunamüvafiq tədbirlər görülür". Baş prokuror bildirib ki, bəzən sosial media istifadəçiləri və yaxud mətbu orqanların əməkdaşları özlərini tam hazırlıqlı hüquqşünas hesab edirlər. Onlar hüquqi məsələlərlə bağlı asanlıqla bəzi mürəkkəb rəy verirlər və qəti fikirlər yürüdürlər. Bu, yolverilməzdir. Çünki hüquq elmi kifayət qədər mürəkkəb elmdir. Sadə göründüyü qədər də mürəkkəb elmdir. Ona görə də müstəntiqlər, prokurorlar və hakimlər tərəfindən hüquqi məsələlər, sübutlar, sübutların təhlili, sübutların qiymətləndirilməsi həyata keçirilir. İşi bilmədən, işin incəliklərini bilmədən, sübutları bilmədən, hətta bayaq qeyd etdiyimiz kimi, məsələn, "Tərtər işi" ilə bağlı fikirlərin yürüdülməsi təbii ki, yolverilməzdir. Hesab edirəm ki, biz bu sahədə jurnalistlər və media orqanları ilə birlikdə müəyyən tədbirlər planı hazırlayaraq həyata keçirməliyik.

Sadəcə olaraq, Azərbaycandakı mətbuat azadlığından sui-istifadə edən, xüsusən də dələduzluqla məşğul olmağı özlərinin həyat tərzlərinə çevirən bir sıra şəxslər mətbuat sahəsində iyrənc fəaliyyət göstərirlər. Mətbuat Şurasına edilən şikayətlərin əksəriyyəti "reket" mediası ilə bağlıdır. "Reket jurnalistlər"in konkret məqsədi olur. Onlar maddi maraqları üçün mətbuatın adından sui-istifadə edir və insanlara hədə-qorxu gəlirlər. Bəzi informasiyaları sifarişlə həyata keçirirlər. Əlbəttə, bununla bağlı hüquqi bazalar yaradılmasına, qloballaşan dünyada yeni qanunların qəbuluna ehtiyac duyulur.

Reketçilik, qarayaxma Azərbaycan mənəviyyatına, milli dəyərlərimizə də ziddir. Bu sahədə mövcud olan qanunlar da kifayət qədər sərtləşdirilib… "Hər bir vətəndaş bununla bağlı öz mövqeyini bildirməli, "reket jurnalistlər"lə mübarizəyə qoşulmalıdır. Azərbaycançılıq ideologiyasına sadiq qalan saytlar da belə jurnalistlərə qarşı mübarizə aparmalıdır. Televiziyalar və qəzetlər də bu məsələdə öz fikirlərini deməlidir. Çünki ictimai qınaqla bu problemi daha asan həll etmək mümkündür. "Əslində, "reket jurnalistika" deyəndə hesab etmirəm ki, bu, yalnız jurnalistikaya aiddir. "Reket jurnalistika" da şərti termindir. Burada söhbət hədə-qorxu ilə tələbetmədən gedir. Bu, bəzən jurnalist fəaliyyətindən istifadə etməkdir və ya jurnalistlərin özfəaliyyətidir. Bu, tək jurnalistlərlə bağlı deyil, bəzən elə sosial media istifadəçiləri tərəfindən də yol verilir. Bunun adı konkret olaraq Cinayət Məcəlləsində hədə-qorxu ilə tələbetmədir. Belə hallar yolverilməzdir. Bu, artıq jurnalistika fəaliyyəti ilə heç bir əlaqəsi olmayan, sırf cinayətkar bir fəaliyyətdir. Hansı ki, tək jurnalistikada deyil, digər fəaliyyət növlərində də biz bunu görürük, müşahidə edirik və bu kimi faktları aşkarlayıb şəxsləri məsuliyyətə cəlb edirik", - deyə Baş prokuror vurğulayıb.

Sonda onu bir daha qeyd edək ki, ölkəmizin mükəmməl qanunları var və bu qanunlar tətbiq də olunur. Belə ki, hüquq-mühafizə orqanlarına belə hallarla bağlı müraciətlər olunduqda, bu məsələlər yerindəcə araşdırılır və öz həllini tapır.

Jurnalistika böyük sahədir. Reketçilik qələmi ilə Azərbaycan dövlətinə, xalqa xidmət göstərən, ictimaiyyətə öz töhfəsini verən jurnalistlərin adına ləkədir. Eyni zamanda, jurnalistika siyasi baxışından asılı olmayaraq, hamıya lazımdır. Ona görə də jurnalistlər də reketçiliklə məşğul olanlarla mübarizə aparmalı, ümumi səyləri birləşdirməklə yalan informasiya yayan saytların çoxalmasının qarşısını almalıdırlar.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2022- ci il.- 2 avqust.- S. 4.